Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Layihənin istiqaməti:
"İctimai və dövlət maraqlarının müdafiəsi"

# Azərbaycanın ilk hərbi hissələrinin təşkilatçısı

## Ömrünü vətənə xidmətə həsr etmiş general-mayor Süleyman bəy Əfəndiyev milli ordu quruculuğunda böyük xidmətləri olan şəxsiyyətlərdəndir

(Əvvəli ötən sayımızda)

**Azərbaycanda milli ordunun yaradılmasında S.Əfəndiyevin əhəmiyyətli rolu və xidməti bəzi arxiv sənəd və materiallarında öz əksini tapmışdır. Tarixi sənədlər təsdiq edir ki, S.Əfəndiyevin milli ordu quruculuğu sahəsində fəaliyyəti hələ o sağ ikən AXC hökuməti və Hərbi Nazirliyi tərəfindən yüksək qiymətləndirilmişdir.**

1918-ci il dekabrın 29-da AXC Nazirlər Şurasının iclasında hərbi nazir Səməd bəy Mehmandarovun məruzəsi əsasında Hərbi Nazirliyin nəzdində tapşırıqlar generalı vəzifəsini icra edən polkovnik Süleyman Əfəndiyevə xidmətdə fərqləndiyinə görə general-mayor rütbəsinin verilməsi haqqında qərar qəbul edilmişdir. S.Əfəndiyev - AXC tərəfindən general-mayor rütbəsi verilmiş ilk hərbçi olmuşdur.

Onu da qeyd edim ki, S.Əfəndiyev 1917-ci ilin iyulunda Zaqafqaziya Komissarlığının sərəncamı ilə Gəncəyə ezam edilmişdir. O, burada öz vəzifəsini yerinə yetirməklə yanaşı, Nəsib bəy Yusifbəylinin başçılıq etdiyi Gəncə müsəlman komitəsinin işində də yaxından iştirak etmişdir. Məhz həmin komitənin səyləri nəticəsində şəhərdə və qəzada ermənilərin törətdikləri qırğınların qarşısı alınmışdır. S.Əfəndiyev Gəncə müsəlman milli komitəsinin köməyi ilə hərbi kurslar açmışdır. Burada onun tərəfindən gələcək Azərbaycan ordusu üçün təlimatçılar hazırlayacaq 150 nəfərdən ibarət ilk təlim komandası təşkil edilmişdir.

Zaqafqaziya Komissarlığının qərarı ilə Müsəlman Korpusunun komandiri vəzifəsinə 1917-ci dekabrın 2-də çar ordusundan tərxis olunan general-leytenant Əliağa Şıxlinski təyin edilmişdir.

Artilleriya general-leytenantı Ə.Şıxlinski Müsəlman Korpusunun komandiri təyin olunarkən S.Əfəndiyev korpusun 2-ci atıcı diviziyasının 5-ci atıcı alayının komandiri təyin edilmiş, bir müddət isə korpus komandirinin əmri ilə diviziya komandirinin vəzifələrini icra etmişdir.

1918-ci il mayın 28-də müsəlman Şərqində ilk demokratik və yeganə parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyəti yaradılanda Ə.Şıxlinski vətəninə qayıdaraq Milli Ordunun yaradılmasında bilavasitə yaxından iştirak etdi. Azərbaycan Korpusunun komandiri general-leytenant Ə.Şıxlinski Nazirlər Şurasının 29 dekabr 1918-ci il tarixli qərarı ilə hərbi nazirin köməkçisi təyin edildi.

Müvəqqəti olaraq hərbi nazir vəzifəsini icra edən general-leytenant Ə.Şıxlinskinin I piyada diviziyasının başçısı mərhum general-mayor S. Əfəndiyevin milli ordunun yaradılması sahəsindəki xidmətlərini nəzərə alaraq onun dəfn mərasimi xərclərinin dövlət hesabına götürülməsi haqqında 1919-cu il fevralın 21-də Gəncədə imzaladığı 89 №li əmrdə qeyd edilirdi: "...Tiflisdəki müxtəlif məsuliyyətsiz təşkilatların Müsəlman alayına qarşı açıq-aşkar müqavimət göstərdiyi və keçmiş Zaqafqaziya Respublikasının təchizat idarələrindən bir şey almaq son dərəcə çətin olduğu bir vaxtda polkovnik Əfəndiyev özünün doğma işinə olan istəyi və qətiyyəti sayəsində alay üçün nəzərdə tutulan əmlakın çox hissəsini Tiflis intendantlığından əldə edərək Gəncəyə çatdırmışdır... Çoxlu qayğılar içərisində onun özü haqqında fikirləşməyə vaxtı olmamış - səpmə yatalaq xəstəliyinə yoluxaraq vəzifə başında qarovul-növbətçi kimi vəfat etmişdir. Allah sənə rəhmət eləsin, əsil vətən oğlu, yorulmaz qulluqçu!

Vəfat etmiş general Əfəndiyevin Batum şəhərində yaşayan ailəsi tamamilə vəsaitsiz qalmışdır. O, böyük oğlunun ölüm xəbərini alarkən ona həvalə edilmiş tapşırığın vacibliyini düzgün qiymətləndirərək vəzifəsini tərk etməmişdir.

Mərhumun dəfn mərasimi üzrə bütün xərclərinin dövlət hesabına götürülməsini və onun ailəsinə 5 min rub. birdəfəlik maddi yardımın ayrılmasını əmr edirəm. Eyni zamanda onun ailəsinin ehtiyac hiss etmədən yaşaması üçün kifayət edən pensiyanın təyin olunması haqqında vəsatəti hazırda Bakıda olan hərbi nazir qarşısında qaldırıram".



Hərbi nazir, artilleriya generalı S.Mehmandarov S.Əfəndiyev haqqında yüksək fikir söyləyərək qeyd etmişdir: "General Süleyman bəy Əfəndiyev təmizlikdə, namusda, qeyrət və fədakarlıqda... idarəmdəki cümlə zabitan arasında ən birinci mövqe tutanlardan idi!"

Ölkəmizdə milli ordu quruculuğu tarixinə nəzər salaraq, bu yolda böyük zəhməti və xidmətləri olmuş şəxsləri böyük hörmət və ehtiramla yad etmək hər bir vətəndaşın borcudur. Çünki həmin şəxslər yenicə yaradılmış dövlətin müstəqilliyinin və ərazi bütövlüyünün qorunub saxlanılmasında, genişlənməkdə olan erməni-daşnak-bolşevik təcavüzünün qarşısının alınmasında müstəsna rol oynamış və Azərbaycan silahlı qüvvələrinin yaradılması uğrunda həyatlarını qurban vermişlər.

Azərbaycan Xalq Cümhuriyyətinin ordu quruculuğunda milli duyum, milli birlik və milli iftixar, vətənə, torpağa bağlılıq əsas prinsiplərdən biri olmuşdur. Əsgər və zabitlər ilk növbədə vətəndaş olmalı, vətənini, dilini və millətini sevməli, onun keşiyində layiqincə dayanmağı bacarmalı idilər.

General-mayor S.Əfəndiyev yenilməzlik nümunəsi göstərərək ömrünü tamamilə vətənə xidmətə həsr etmiş hərbçilərimizdən olmuşdur. S.Əfəndiyevin adı tanınmış ictimai xadim, Azərbaycanın ilk hərbi hissələrinin təşkilatçısı və ilk şəhid general kimi tarixə düşmüşdür.

Respublikamızda ordu quruculuğunda, ölkəmizin ərazi bütövlüyünün qorunub saxlanmasında xidmətləri olmuş hərbi sərkərdələr və hərbçilər heç vaxt unudulmur. Milli ordu quruculuğunda rolu və xidməti olmuş vətən övladlarının, o cümlədən general S.Əfəndiyevin xatirəsi Azərbaycan xalqının qəlbində daim yaşayır və böyük ehtiramla yad edilir.

Hazırda Qazax şəhərindəki 1 saylı orta məktəb S.Əfəndiyevin adını daşıyır.



■ **Rafiq Səfərov,**
**Milli Arxiv İdarəsinin Sənədlərin nəşri və istifadəsi şöbəsinin baş məsləhətçisi**